Open Government Initiative Government - Civil Society Dialogue Platform

AZERBAIJAN

# Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoq Platforması


AZ, 1001, Bakı ş. M.Əfəndiyev 7/24 — Tel: (+9941) 4925726

www.ogp.org.az — E-mail office@ogp.org.az


*№ 01/2021*

*06.01. 2021*

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Fiskal şəffaflıq, effektiv audit, ictimai resursların səmərli istifadə olunmasını tənin edən əsas şərtlərdən biri olmaqla təsirli antikorrupsiya aləti kimi çıxış edirlər. Son illər sosial-iqtisadi islahatların geniş vüsət aldığı, büdcə və vergi intizamının möhkəmləndirilməsinin dövlət siyasətində üstünlük təşkil etdiyi ölkəmizdə korrupsiyaya qarşı uğurlu nəticələr əldə edilməsi üçün dövlət nəzarəti ilə bərabər qeyri-dövlət nəzarətinin, o cümlədən ictimai nəzarətin və kənar auditin geniş tətbiqi zəruridir. Bu baxımdan Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətini xüsusi qeyd etmək olar.

Bu il Auditorlar Palatasının 25 illik yubileyi qeyd olunur. Palatnın tarixində əslində müstəqil respublikamızın keçdiyi tarixi yol əks olunub. Ölkəmizin bu illər ərzində iqtisadi quruculuq sahəsində qazandığı uğurların möhkəmlənməsinə Azərbaycan auditinin də xidmətləri var. Ölkə iqtisadiyyatında yüksək şəffaflığa nail olunmasının istiqamətlərindən biri kimi beynəlxalq standartların və qabaqcıl xarici təcrübənin tətbiqidə Paltanın xüsusi rolu da qeyd olunmalıdır.

Auditorlar Palatası 30-dan artıq ölkənin audit və mühasibatlıq təkilatları ilə əməkdaşlıq sazişləri, niyyət protokollları və memorandumlar imzalayıb. Bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası (İFAC), Avropanın Mühasiblər və Auditorlar Federasiyası(EFAA) kimi nüfuzlu beynəlxalq audit və mühasibatlıq qurumlarına tam hüquqlu üzv qəbul olunub.

Auditorlar Palatası ötən 25 ildə auditin təbliği və yayılması istiqamətində bir çox işlər görüb, o cümlədən auditə dair kitablar, ali məktəblər üçün dərs vəsaitləri, milli audit standartları hazırlayıb. Audit normativ hüquqi bazasının təkmilləşdirilməsi sahəsində ciddi işlər görülüb, kadrların peşəkarlıq potensialının, auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsi üçün lazımi tədbirlər həyata keçirilib.

Bir daha qeyd edək ki, Palata fəaliyyəti dövründə milli audit sisteminin formalaşması sahəsində fundamental işlər görüb, audit xidmətinin əhatə dairəsi genişlənərək ölkə iqtisadiyyatının inkişafında, şəffaflığın təmin olunmasında, korrupsiyaya qarşı mübarizədə əhəmiyyətli rol oynayıb. Palata ictimai iştirakçılıq, vətəndaş cəmiyyəti ilə əməkdaşlığa da xüsusi önəm verib. Azərbaycan


Azərbaycan Respublikasının Auditorlar Palatası
Daxil № 18
"11" 01. 2021-ci il

Açıq Hökumət Platforması ilə yaxından əməkdaşlıq edir, zəruri hallarda ekspert və konsultasiya dəstəyi verir, Platformanın təklifləri nəzərə alınır və dövlət orqanları qarşısında qaldırılır.

Azərbaycan Açıq Hökumət Platforması adından 25 illik yubiley münaibəti ilə Sizi, Palatanın kollektivini təbrik edir, yeni naliyyətlər arzu edirəm.

**Hörmətlə,**

**Əliməmməd Nuriyev**
Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş
Cəmiyyəti Dialoqu Platformasının koordinatoru